# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARININ TƏŞKİLİ VƏ FƏALİYYƏTİ

**Mən bu gün bir daha bəyan edirəm ki, Milli Təhlükəsizlik Nazirliyinə tam etibar edirəm və əmin olduğumu bildirirəm ki, nazirlik, onun bütün əməkdaşları bu etimadı tam doğruldacaqlar.**

**Ümummilli lider Heydər ƏLİYEV**

**İlham Abbasov,**
**Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının baş müəllimi – hüquq üzrə fəlsəfə doktoru, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi.**
e-mail: academyofjustice@mail.ru

*Məqalədə müəllif tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhlükəsizlik orqanlarının təşkili və fəaliyyətinə dair məsələ nəzərdən keçirilir.*

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, kəşfiyyat və əkskəşfiyyat orqanları, əməliyyat məlumatları, Əksinqilabı Mübarizə Təşkilatı, konsepsiya.

**Xüsusi xidmət orqanlarının tarixi qədimdir. Lakin bu orqanlar heç də konkret dövlətin yarandığı vaxtda deyil, onun inkişafının müəyyən inkişaf mərhələsində yaranmış və fəaliyyət göstərmişdir.**

Rusiyada isə xüsusi xidmət orqanlarının təşəkkülü orta əsrlərdə, konkret desək Moskva çarlığının banisi Çar İvan Qroznının çarlığı dövrünə təsadüf edir. Belə ki, Çar İvan Qroznının çarlığı dövründə dövlətin, bilavasitə Çarın idarəçiliyində **(Çarın bilavasitə tabeçiliyində–İ.A)** olan və güclü mərkəzi hakimiyyət yaratmaq uğrunda mübarizədə onunçün dayaq təşkil edən orqan kimi yaradılmışdır. Tarixə, IV İvan Qroznı kimi, düşmüş monarxın mövcud rejimdə xəzinəni talayan və Rusiyanın düşmənləri ilə əlbir olan cinayətkar boyarları başqa cür cəzalandırılması mümkün deyildi.

Çar opriçninasının **(IV İvan Qroznının çarlığı dövründə dövlətin, bilavasitə Çarın idarəçiliyində olan və güclü mərkəzi hakimiyyət yaratmaq uğrunda mübarizədə onun üçün dayaq təşkil edən hissəsi–İ.A.)** ilk rəhbəri boyar A.D.Basmanov (1565-1570-ci illərdə) olmuşdur [1, səh. 9-13].

Xüsusi xidmət orqanları həmişə dövlətin mənafeyini qorumuşdur.

**Zaman-zaman xüsusi xidmət orqanları inkişaf etməklə yanaşı, bu orqanların adı, həmin orqanların qarşısında duran vəzifə və funksiyaları, iş üslubu və metodları da dəyişmişdir.** Müxtəlif ölkələrdə xüsusi xidmət orqanları fərqli

adlar altında yaradılmış və fəaliyyət göstərmişlər. Məsələn, bolşeviklərin oktyabr 1917-ci il çevrilişindən sonra (**Böyük Oktyabr Sosialist inqilabı nəzərdə tutulur–İ.A.**) 1917-ci ilin dekabr ayının 7-də (**yeni stillə dekabrın 20-də–İ.A.**) Rusiya Sovet Sosialist Respublikasının Xalq Komissarları Soveti F.E.Dzerjinskinin başçılığı ilə Ümumrusiya Fövqəladə Komissiyasının yaradılması haqqında qərar qəbul edir.

XKS qərarı ilə ÜRFK–nın aşağıdakı vəzifələri müəyyən edilirdi:

«1) Rusiyanın hər yerində, kim tərəfindən edilməsindən asılı olmayaraq, hər cür əksinqilabı və pozuculuq cəhdləri və hərəkətlərinin qarşısını almaq;

2) bütün pozucuları və əksinqilabçıları inqilabi tribunal məhkəməsinə vermək və onlarla mübarizə tədbirlərini hazırlamaq» [2, səh. 42].

Quruluş cəhətdən ÜRFK da Hərbi-İnqilab Komitəsi kimi idi. O, məlumat, təşkilat, əksinqilab və sabotajla, vəzifə cinayətləri ilə mübarizə şöbələrinə və s. şöbələrə ayrılırdı. Orduda və donanmada əksinqilabla mübarizəni ÜRFK-nın xüsusi şöbəsi həyata keçirirdi. ÜRFK-ya sədr, onun iki müavini və iki katibdən ibarət Rəyasət heyəti başçılıq edirdi. ÜRFK–nın aparatı o qədər də böyük deyildi–1917-ci ilin dekabrında 40, 1918-ci ilin martında isə 120 adamdan ibarət idi. Yerlərdə fövqəladə komissiyalar hər bir vilayət və quberniya icraiyyə komitəsinin yanında, dəmir yolu qovşaqları mərkəzlərində, iri limanlarda və sərhəd zolağında yaradılır. 1918-ci ilin birinci yarısında artıq 40 quberniya, habelə 365 qəza fövqəladə komissiyası fəaliyyət köstərirdi. ÜRFK onların fəaliyyətini birləşdirirdi. Fövqəladə komissiyalar bütün partiya və sovet orqanları ilə sıx əlaqədə işləyir və öz hərəkətləri haqqında onların qarşısında hesabat verirdilər [2, səh. 42].

ÜRFK inqilabi tribunallarla, habelə xalq daxili işlər və ədliyyə komissarlıqları ilə birlikdə əksinqilabi cinayətlərlə mübarizə aparırdı. Bu Xalq komissarlıqlarının ÜRFK–da nümayəndləri var idi, öz növbəsində ÜRFK–nın nümayəndəsi XDİK–nın kollegiyasına daxil idi. Sabotajçılar və sui-qəsdlər barəsində qəti tədbirlər görmək üçün ÜRFK əksinqilabıçıların əmlakını müsadirə etmək, onları ərzaq kartoçkalarından məhrum etmək, xalq düşmənlərinin siyahısını tərtib edərək, elan etmək və s. ixtiyarına malik idi [2, səh. 43].

**Qərbi Avropa ölkələrində isə xüsusi xidmət orqanlarının yaranması tarixi daha qədim dövrə gedib çıxır, lakin həmin dövrdə bu orqanların fəaliyyətinin forma və üsulları primitiv idi.**

**Göründüyü kimi, xüsusi xidmət orqanlarının yaranması konkret tarixi şəraitdə hər bir dövlətin qarşısında duran vəzifələrlə şərtləşir. Onun mübarizə metod və formaları, iş üsulları, dövrün tələbindən asılı olaraq, dəyişir, elm-texnikanın inkişafı ilə əlaqədar, mübarizə üsulları da təkmilləşir.**

Ümummilli lider Heydər Əliyev 5 iyul 1997-ci il tarixdə Respublikanın Milli Təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edil-

məsinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində demişdir: «Müstəqil Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaranıbdır. Ancaq bu, boş yerdə yaranmayıbdır, bunun tarixi kökləri var və tarixi köklərini də düzgün müəyyən etmək lazımdır.

**Azərbaycan xalqının orta əsrlərdə dövləti olmuşdur. Sonra xalqımız dövlətçiliyini itirmiş və əsrin əvvəllərində-1918-ci ilin may ayının 28-də Azərbaycanda yenidən milli dövlət qurulmuş, ilk Azərbaycan Demoktarik Respublikası elan olunmuş və yaranmışdır. Ona görə də bugünki müstəqil Azərbaycan Respublikasının təhlükəsizlik orqanının başlanğıc tarixini 1918-20-ci illərdə yaşamış ilk Azərbaycan Demokratik Respublikasının bu məqsəd üçün yaratdığı orqandan götürmək doğru, düzgün və çox məqsədəuyğun qərardır. Bu təklifi mənə təqdim edən kimi, bunu məmnuniyyətlə qəbul etdim və 28 mart gününü Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan etdim. 1919-cu il mart ayının 28-də ilk dəfə müstəqil Azərbaycan Demoktarik Respublikasının təhlükəsizlik orqanı yaradılıbdır. O, demoktratik respublika kimi az yaşayıbdır, ancaq tarixi hadisədir» [3, səh. 330-331].**

Konkret tarixi şəraitdən asılı olaraq, xüsusi xidmət orqanları hər bir ölkədə müxtəlif orqanların tərkibində və müxtəlif formalarda yaradılmış, həmçinin konkret vəzifələri yerinə yetirilmişdir.

**Azərbaycan Milli İslam Şurası 28 may 1918-ci ildə Tiflisdə Azərbaycanın dövlət müstəqilliyi haqqında «İstiqlal bəyannaməsi»ni qəbul etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası–birinci Müvəqqəti Hökumətin tərkibini təsdiq etmişdir. Həmin qərara əsasən Fətəli Xan Xoyski Nazirlər Şurasının sədri və Daxili İşlər Naziri təsdiq etmişdir. Lakin həmin vaxt xüsusi xidmət orqanları hələ təsdiq olunmamışdı. Birincisi, həmin Müvəqqəti Hökumət Tiflis şəhərində – mühacirətdə yaradılmışdı. Digər tərəfdən, Müvəqqəti Hökumətin hələ kifayət qədər təcrübəsi yox idi və buna görə də belə bir orqanın yaradılmasına zərurət görmürdü.**

16 iyun 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Müvəqqəti Hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixli Qərarı ilə Gəncədə dislokasiya olunmuş «Müsəlman korpusu» «Əlahiddə azərbaycan korpusu» adlandırılmış və ümummilli lider Heydər Əliyevin Prezident kimi imzaladığı 22 may 1998-ci il tarixli Fərmanı ilə hər ilin 26 iyunu Azərbaycan Silahlı Qüvvələrinin yaranması günü kimi qeyd etmək qərara alınmışdır [4, səh. 1]. Lakin ölkədə xüsusi xidmət orqanları isə hələlik yaradılmamışdı.

Şərqdə ilk parlamentli respublika üçün bolşevik Rusiyasının üçün real təhlükə yaratması, ölkədə və o cümlədən Milli Ordu sıralarında hələ də baş verən özbaşınalıqlar və pozğunçuluq halları xüsusi xidmət orqanlarının təşkilinə zərurət

yaratdı. Ona görə də Hərbi Nazir, tam artilleriya generalı **(general-polkovnik–İ.A)** S.S.Mehmandarovun 28 mart 1919-cu il tarixli 157 №li əmri ilə Baş Qərargahın general-kvartmeystr şöbəsində kəşfiyyat və əks-kəşfiyyat bölməsi yaradılır. Maraqlıdır ki, həmin dövrdə, bir qayda olaraq, Hərbi Nazirin əmrlərinə eyni zamanda Baş Qərargahın rəisi Sulkeviç də imza edirdi [5, səh. 87].

Təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi imzaladığı 23 mart 1997-ci il tarixli 525 №-li Fərmanı ilə hər ilin 28 mart Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan edilmişdir [6, səh. 1].

Ümummilli lider Heydər Əliyev demişdir: «Öz dövlətçilik tariximizi 1918-1919-cu illərdən hesablayaraq, ötən dövrdə Azərbaycan həyatının bütün sahələrində, o cümlədən təhlükəsizlik orqanlarının həyatında da nə qədər çətin və mürəkkəb proseslər olduğunu biz yaxşı görürük. Ancaq bu gün iftixar hissi ilə demək olar ki, Azərbaycan xalqı uzun illər böyük, ağır yol keçərək öz milli azadlığını, dövlət müstəqilliyini əldə etdiyi kimi, Azərbaycanın təhlükəsizlik orqanları da geniş bir yola çıxmışlar» [7, səh. 110].

**Beləliklə, ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusi xidmət orqanları Hərbi Nazirliyin tərkibində yaradılmışdır.**

Hərbi idarə çərçivəsində olan bu struktur öz fəaliyyətini yalnız təhlükəsizliyin hərbi aspekti ilə məhdudlaşdırmırdı. 1919-cu ilin aprelin 2-də Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubunda Səməd bəy Mehmandarov yazırdı: «Hərbi əks-kəşfiyyatın başlıca vəzifəsi dövlət daxilində hərbi casuslarla mübarizədir, bolşevizimlə mübarizə ümumdövlət işi olduğundan tək hərbi idarə onun öhdəsindən gələ bilməz. Rus ordusunun dairə qərargahlarının təcrübəsi də göstərir ki, hətta xeyli pul buraxıldıqda belə, təcrübəli icraçılar və axtarışla bağlı xüsusilik tələb edən bu cür mürəkkəb, incə işi qaydaya salmaq hərbi idarənin hünəri deyil» [8, səh. 107].

**Beləliklə, 1919-cu ilin aprelin 13-də dövlət hakimiyyətinin bütün strukturları Azərbaycan hökümətinin ixtiyarına keçdikdən sonra mərkəzləşdirilmiş kəşfiyyat və əks-kəşfiyyat haqqında məsələnin müzakirəsi mümkün oldu. Denikinin 1919-cu ilin aprel ayında Dağıstana və Gürcüstana hücumu Azərbaycan üçün də müstəqilliyin, istiqlaliyyətin itirilməsi təhlükəsini yaratmışdı.**

Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 9 iyun 1919-cu il tarixli qərarı ilə dövlətin qorunması üzrə xüsusi orqan – Dövlət Müdafiə Komitəsi yaradılmışdır [5, səh. 104-105].

Dövlət Müdafiə Komitəsi xüsusi səlahiyyətlərə malik olan bir orqan idi. Dövlət Müdafiə Komitəsi ölkədə ümumi hərbi səfərbərlik keçirmək, hərbi və müharibə vəziyyəti elan etmək, xüsusi könüllü dəstələr yaratmaq, ölkənin təhlükəsizliyi ilə bağlı məsələlərin müza-

kirəsini aparmaq, müvafiq qərarlar qəbul etmək, qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi məqsədi ilə yeni strukturlar yaratmaq və s. hüquqlara malik idi. Dövlət Müdafiə Komitəsi ortaya fövqəladə məsələləri və qəbul edilmiş qərarların icrasını təşkil etməli idi. Dövlət Müdafiə Komitəsinin iclasları onun üzvlərindən üç nəfərin iştirak etdiyi şəraitdə hüquqi səlahiyyətli hesab olunurdu. İclasa rəhbərliyi Nazirlər Şurasının sədri edirdi. O, iclasda iştirak etmədiyi təqdirdə Dövlət Müdafiə Komitəsinin istənilən üzvünə sədrlik səlahiyyəti tapşırıla bilərdi [9, səh. 49].

29 mart 1919-cu ildə Hərbi Nazir, artileriya generalı S.S.Mehmandarov aşkar edilmiş casus təşkilatının üzvlərinin saxlanılması üçün tədbirlər görülməsi haqda X.Xasməmmədova teleqram verir. Teleqramda göstərilirdi ki, Azərbaycan silahlı qüvvələri barədə Könüllülər ordusunun **(Denikinin ordusu nəzərdə tutulur–İ.A)** və Erməni hökumətinin xeyrinə məlumat toplanması haqda şübhə doğurmayan sübutlara əsasən Gəncədə Smıslov həbs edilmişdir. Onun işində iştirakçılığa görə Gəncə qarnizonunun bir neçə zabiti də müəyyən edilmişdir. Bakıda onun aşağıda göstərilən iştirakçıları vardır: Erməni küçəsi 8-də yaşayan erməni ordusunda xidmət etmiş Baş Qərargah zabitinin arvadı olan Nelli Fyodorovna Çernişova; Stanislav Rudolfoviç Zuber də Rılskilərin Merkuriyevski kontorundadır.

S.Smehmandarov daha sonra teleqramında göstərirdi ki, Çernişovun da mənzilində axtarış aparılması zəruridir, axtarış zamanı nəsə aşkar edilərsə, onu həbs etmək, işi isə məhkəmə müstəntiqinə vermək. Belə bir axtarışın Zuberin də evində aparılması zəruridir.

Həmin teleqramında həmçinin, göstərilirdi ki, cənab Smıslov Gəncəyə Tiflis dəmir yolunun jandarm idarəsinin keçmiş rəisi kn. Şetinin Muxaylovski polkunun müdürinin ona köməklik edilməsi haqda məktubu ilə gəlmişdir. Güman edirəm ki, casus təşkilatı Bakıda yerləşir və bütün saplar ora gedir, təşkilatın rəhbəri təcrübəli jandarm Şetinindir, ona görə də axtarış aparılıb onun təcili həbsə alınması zəruridir.

Teleqramda imzadan sonra belə bir qeyd vardır: Arayış...martın bu günü gündüz saat 5-də qubernator R.Axundov çağrılıb, mənim tərəfimdən müvafiq tapşırıq verildi [5, səh. 89].

**Milli Ordunun Baş Qərargah rəisi general-leytenant Sulkeviç azərbaycan ordusunun Bakıya gəlməsi ilə əlaqədar S.Ağabəyova Gəncədən 31 mart 1919-cu il tarixdə əks-kəşfiyyatın təşkili barədə 1539 №-li məktub yazır. Məmməd bəy Sulkeviç həmin məktubunda göstərir ki, bu ilin aprel ayının 5-də azərbaycan ordusunun Bakıya gəlməsi ilə əlaqədar Hərbi Nazir mənə mühüm tapşırıq – əks-kəşfiyyat işinin təşkili haqda tapşırıq vermişdir. Bu məqsədlə tərəfimdən yasavul Yusupov ora ezam edilir, xahiş edirəm, ona müvafiq köməkliyinizi əsirgəməyəsiniz [5, səh. 90-91].**

Həmin məktubun aşağısında imzadan sonra belə bir qeydiyyat vardır: Şəxsən qubernatora təklif edilmişdir ki, yasavul Yusupova hərtərəfli kömək etsin və onun hərəkətlərinin Bakı axtarış polisi ilə razılaşdırılsın. 2 aprel. General Ağabəyov [5, səh. 91].

Qeyd etmək lazımdır ki, «Kəşfiyyat və əkskəşfiyyat»ın, Hərbi Nazirlikdə bir bölmə olaraq fəaliyyət göstərməsi, eləcə də bu sahə üzrə peşəkar mütəxəssislərin olduqca azlıq təşkil etməsi ictimai-siyasi həyatın bir çox sahələrində olduğu kimi əks-kəşfiyyat işini də genişləndirməyə və inkişaf etdirməyə nəinki imkan vermirdi, hətta mane olurdu. Çətinlik törədən amillərdən biri də bu bölmənin əməkdaşlarının sayca az olması idi. Belə ki, bu bölmənin ştatına uyğun olaraq sayca 28 nəfər olmalı idi. Bunlardan 1 nəfər rəis, 2 nəfər rəis köməkçisi, 2 nəfər kargüzar, 23 nəfər isə agent (əməkdaş) olmalı idi. Lakin bölmə kadrlarla tam komplektləşdirilmədiyindən bəzi vakant yerlər də qalmışdı. Azərbaycana marağın artdığı, müstəqilliyinin təhlükə altında olduğu bir dövrdə belə bir qurumla hərbi nazir S.Mehmandarov dediyi kimi, böyük işlər görmək və ölkənin hərbi təhlükəsizliyini təmin etmək olduqca çətin idi [9, səh. 38].

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə kəşfiyyat və əkskəşfiyyat xidmətinin əməkdaşları əməliyyat işinin ənənəvi üsullarından, o cümlədən inanılmış şəxslərin məlumatlarından da, özünəməxsus qaydalarla, əldə edərək, səmərəli istifadə etmişlər.** Bu cəhəddən, Baş Qərargah Baş İdarəsinin rəisinin əməliyyat-kəşfiyyat bölməsinin böyük adyutantının Lənkaranda olan hökümət əleyhinə qüvvələrin sayı və silahları barədə məlumatı xarakterikdir.

Böyük adyutant qeyd edilən məlumatında göstərir ki, mənim məlumatıma görə (uyezd müdiriyyətinin məmurlarından və tam inanılmış şəxslərdən aldığım məlumata görə) Lənkaranda bolşeviklərin qüvvəsi 1200 nəfərdən 1500 nəfərə qədərdir, hansı ki, onların çoxu rus və ermənilərdir, Lənkaranda bolşeviklərin 4 topu vardır, Baxmayaraq ki, onların kifayət qədər təlimatçı-zabitləri vardır, lakin onlar hərbi-təşkilatı çox zəifdir.

Məlumatda daha sonra göstərilirdi ki, Muğanda 2 dəstələri var: a) bolşeviklər bir neçə zabitə malik olmaqla nisbətən güclüdürlər və 12 topları var, b) bolşeviklərin ikinci dəstəsi zəifdir. Bu dəstələrdə adamların sayını müəyyən etmək mümkün olmamışdır; bu dəstədə 12 top var, bununla bərabər bu dəstələrdə çoxlu nasazlıqlar var. Bolşeviklərin əleyhinə olan dəstə Könüllülər ordusuna hüsnürəğbət bəsləyir və təsadüfi deyildir ki, Lənkəran və Muğanı işğal etməsi xahişi ilə bu yaxınlarda Denikinə nümayəndə göndərmişlər. Denikin yaxın gələcəkdə dəstə göndərməyə söz verib.

Həmin məlumatda, həmçinin, göstərilirdi ki, Salyandan bizim hərbiçilər hücuma keçərkən yolboyu müsəlman kəndləri yerləşir, hansı ki, onlar bizim hərbiçilərə qoşulmağı səbrsizliklə göz-

ləyirlər. Bu kəndlərdə əhali yaxşı silahlanmış, lakin yaxşı təşkilatlanmamışlar, onlar hücuma keçərkən yaxşı zabitlər ezam edilməsini xahiş edirlər.

Daha sonra həmin məlumatda göstərilirdi ki, Prişip **(hazırda Göytəpə–İ.A.)** sırf bolşeviklərdir. Orada 1000-dən çox olmayan silahlılar, 4 topları var. Privolnu kəndi isə bolşeviklərə hüsnü-rəğbət bəsləməsələr də, demək olmaz ki, Azərbaycana da sədaqətlidirlər. Yerli hakimiyyət belə hesab edir ki, bizim hərbiçilər hücum edəcəkləri halda Privolnu kəndinin sakinləri ola bilsinki, onlara **(müstəqil Azərbaycan Respublikasının hərbiçilərinə–İ.A.)** qoşulsunlar.

Həmçinin, məlumatda oda göstərilir ki, üstün yüksəkliklər Prenbel **(Yardımlı rayonu ərazisindədir-İ.A.)** və Beləsuvardadır. Beləsuvarda 3 top var. Bolşeviklərin bazası – Saradadır **(Sara adası Lənkarana daxildir–İ.A.)**, hansı ki, orada bir neçə qidroplan **(suya düşə bilən təyyarə–İ.A.)** vardır [5, səh. 222-223].

**Təbii ki, belə bir kəşfiyyat məlumatlarının gələcək hərbi əməliyyatların keçirilməsi hazırlıq üçün böyük əhəmiyyəti vardı.**

Qeyd etmək yerinə düşər ki, Azərbaycanın Yerevandakı diplomatik nümayəndəsi M.X.Tekinskinin Xarici İşlər Naziri M.Y.Cəfərova ünvanlandığı 11 iyul 1919-cu il tarixli teleqramında göstərilirdi ki, Böyük Vedi kəndində erməni ordusuna hücum edərək sonuncunu topları ilə dəmir yolu xəttinə çəkilməyə məcbur edib. Yerevana çoxlu yaralı gəlir. Öldürülən erməni əsgərləri 200 nəfərdən, ölən və yaralanan zabitlər isə 10 nəfərdən çoxdur. Deyirlər ki, müsəlmanlar ermənilərin iki top və səkkiz pulemyotunu ələ keçirmişlər. Ordu yeni hücum üçün hazırlaşır. Ermənilərdə ruh düşkünlüyü var. Ermənilər bu uğursuzluğu türk əsgərlərinin iştirakı ilə əlaqələndirir və buna da ingilislərin hərbi nümayəndəliyi inanır, halbu ki, Türk əsgərləri kənddə ümumiyyətlə yoxdur və belə bir məlumat, bir qayda olaraq ermənilərdən gəlir. Belə tərəfgərliklə ingilislər tərəfindən mənə bu haqda nota təqdim edilmişdir [5, səh.225].

**Əslində, bu teleqram da hərbi xarakterli teleqram olmaqla, kəşfiyyat məlumatı hesab edə bilməzdi. Lakin belə teleqramın da gələcək hərbi əməliyyatlara hazırlıq üçün böyük əhəmiyyəti vardı.**

Bunun ardınca M.X.Tekinski Xarici İşlər Naziri M.Y.Cəfərova 16 iyul 1919-cu il tarixli, Yeravan şəhərinə verilmiş teleqramda göstərilir ki, Ermənistanda güclü səfərbərlik gedir, ingilislər müsəlmanlar əleyhinə getdiklərini gizlətmirlər [5, səh.226].

1919-cu ilin əvvəllərində Bakıda Denikinin kəşfiyyatının rəisi, Baş Qərargahın zabiti Çemışov Azərbaycanın xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən həbs edilərkən (sonra o ingilislərin təzyiqi ilə azadlığa buraxıldı–C.Q.) onun Azərbaycanın milli ordusunda Denikinin casusu kimi fəaliyyət göstərdiyi sübuta

yetirilmişdi. Eyni zamanda əməliyyat tədbirləri nəticəsində Denikinin casus şəbəkəsində təmsil olunanların bir qisminin ingilis kəşfiyyatına işləməsi müəyyən edilmişdi. Çemışovun yaşadığı mənzildə Azərbaycanın xüsusi xidmət orqanı tərəfindən aparılan axtarış zamanı Denikin kəşfiyatının sxemi, onun tapşırıqları, məqsədi və proqramı, eyni zamanda gizli bolşevik təşkilatının işi, Azərbaycan ordusunun vəziyyəti barədə Denikinə ünvalanmış çoxlu sayda məlumatlar tapılmışdır [9, səh. 40].

**Ölkədə hərbi, ictimai-siyasi vəziyyətin gərgin və kənar müdaxilələrin real olduğu, Denikinin ordularının, erməni separatçılarının, riyakar ingilislərin, eyni zamanda bolşeviklərin Azərbaycanın əleyhinə işlədiyi bir vaxtda müstəqil təhlükəsizlik orqanına xüsusi ehtiyac duyulurdu. Bunu nəzərə alan Azərbaycan Parlamenti 1919-cu il iyunun 11-də Dövlət Müdafiə Komitəsi yanında Əksinqilab ilə mübarizə təşkilatının (ƏMT-in) yaradılması barədə qərar qəbul etdi. Dövlət Müdafiə Komitəsinin sədri Nəsib bəy Yusifbəyli tərəfindən 1919-cu il iyunun 13-də imzalanmış bir sənəddə göstərilirdi: «Mirfəttah Musəvi cənablarına! Dövlət Müdafiə Komitəsinin sənə cariyə haziranın (iyun ayı nəzərdə tutulur-C.Q.) 11-ci günü vaqe olan iclasında zati-aliniz müqabil kəşfiyyat müdirliyinə təyin edilmiş Məhəmmədbağır Şeyxzamanlı cənablarına müavin təyin olunursunuz. Məzkur komitənin qərardadı bərai-məlumat şərh edilir, əfəndin. Dövlət Müdafiə Komitəsinin sədri Yusifbəyli» [9, səh.50-51].**

Bolşeviklərin fəaliyyəti 1920-ci ilin əvvəllərində yeni vüsət aldı. Azərbaycan Xalq Cümhuriyyətinin hüquq-mühafizə və xüsusi xidmət orqanları bütün səylərini bolşevizmlə mübarizəyə yönəltsə də vəziyyət gündən-günə gərginləşirdi. Vəziyyətin gərginliyinə baxmayaraq, nə qədər qəribə də olsa, Nazirlər Şurası 1920-ci il martın 6-da ƏMT-in ləğv edilməsi barədə qərar qəbul etdi [9, səh. 64].

Bundan əvvəl isə 1919-cu il avqustun 20-də böyük qardaşı Məmmədbağır Şeyxzamanlının yerinə qardaşı Nağı bəy Şexyzamanlı Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində əks-inqilabı mübarizə təşkilatının rəis təyin olunmuş, 1920-ci ilin martın 6-na qədər bu quruma rəhbərlik etmişdir. Cümhuriyyət dövründə ölkənin təhlükəsizliyinin təmin olunmasında, sərhədlərin qorunmasında mühüm xidmətlər göstərmişdir.

Nağı bəy Şeyxzamanlı Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan son ölkəni tərk etmək məcburiyyətində qalmış, 1967-ci ildə Türkiyədə vəfat etmişdir [10, səh. 368].

**Ümummilli lider Heydər Əliyev demişdir: «Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir» [7, səh.380].**

**Hesab edirik ki, ümummilli lider Heydər Əliyevin bu sözləri çağdaş Azərbaycan Respublikasının Milli Təh-**

**lükəsizlik orqanlarına da eyni dərəcədə aiddir. Respublikamızın 18 oktyabr 1991-ci ildə öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə çevrilmişdir [9, səh.388].**

**23 may 2007-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası təsdiq edilmişdir [11, səh.51-56].**

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının əsas istiqamətləri: təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi; Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması; Avropa və Avratlantik strukturlarına inteqrasiya; beynəlxalq təhlükəsizliyə töhfə 4 beynəlxalq təşkilatlarla əməkdaşlıq; regional əməkdaşlıq və ikitərəfli münasibətlər; region ölkələri ilə əməkdaşlıq; qeyri-region ölkələri ilə əməkdaşlıq; müdafiə qabiliyyətinin möhkəmləndirilməsi; təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi; demokratiyanın möhkəmləndirilməsi; milli və dini tolerantlıq mühitinin qorunması; elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması; iqtisadi və sosial inkişaf; daxili təhlükəsizliyin möhkəmləndirilməsi; sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi; miqrasiya siyasəti; enerji təhlükəsizliyi siyasəti; nəqliyyat təhlükəsizliyi siyasəti; fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi; informasiya təhlükəsizliyi siyasəti kimi mühüm məsələləri əhatə edir [11, səh.52].

**Bu gün Azərbaycan Respublikasının milli təhlükəsiz orqanları öz sələfi olan Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi xidmət orqanlarının işini yeni şəraitə uyğunlaşdırmaq və daha da təkmilləşdirməklə, uğurla davam etdirirlər.**

**Ədəbiyyat siyahısı:**

1. Александр Колпакиди, Александр Север, «Спецслужбы Российкой Империи», ЭКСМО, Москва-2010, 768 стр.
2. SSRİ dövlət və hüquq tarixi (rus dilindən tərcümə), II hissə, «Maarif» nəşriyyatı, Bakı-1977-ci il, 445 səh.
3. Heydər Əliyev, «Müstəqilliyimiz əbədidir» kitab, 10-cu cild, «Azərnəşr», Bakı-2002, 471 səh.
4. Əliyev H.Ə., «Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü haqqında Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli 707 №-li Fərmanı», «Azərbaycan» qəzetində dərc edilmişdir (23 may 1998-ci il, № 117), («VneshExpertService» LLC), 1 səh.
5. Азербайджанская Демократическая Республика (1918-1920), Армия (Документы и материалы), Издательство «Азербайджан», Баку-1998, 440 стр.
6. Əliyev H.Ə., «Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanlarının əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 mart 1997-ci il tarixli 525 №-li Sərəncamı («Azərbaycan» qəzetində dərc edilmiş, № 55) (VneshExperctService LLC), 1 səh.

7. Əliyev H.Ə., «Müstəqilliyimiz əbədidir» kitabı, 15-ci cild, «Azərnəşr», Bakı-2005, 527 səh.
8. Abbasov N.R., «Öncə Vətəndir (çıxış, məruzə və müsahibələr)», Hərbi nəşriyyat, Bakı-2000, 192 səh.
9. Qasımov C., Bağırov X., «Azərbaycan təhlükəsizlik orqanlarının qısa tarixi (Dərslik)», Bakı-2008, 492 səh.
10. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası, II cild, «Lider» nəşriyyatı Bakı-2005, 469 səh.
11. Əliyev İ.H., «Azərbaycan Respublikasının Milli Təhlükəsizllik Konsepsiyasının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı və «Azərbaycan Respublikasının Milli Təhlükəsizllik Konsepsiyası», «Qanunçuluq» jurnalı, № 5, 2007, 51-66 səh.

## ОРГАНИЗАЦИЯ И ДЕЯТЕЛЬНОСТЬ ОРГАНОВ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ ПРИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

**Аббасов Ильгам Курбан оглы.**

Автор статью посвятил актуальной теме – вопросу организации и деятельности органов национальной безопасности при Азербайджанской Народной Республики.

И.К.Аббасов справедливо приходит к выводу о том, что органы национальной безопасности Азербайджанской Демократической Республики являются наследником органов разведки и контрразведки, действовавших при Азербайджанской Демократической Республики.

**Ключевые слова:** *Азербайджанская Демократическая Республика, органы разведки и контрразведки, оперативные сведения, Организация борьбы с контрреволюцией, концепция.*

## THE ORGANIZATION AND ACTIVITY OF NATIONAL SECURITY BODIES AT THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

**Abbasov Ilham Gurban ogly.**

The author devoted article to an actual topic - a question of the organization and activity of national security bodies at the Azerbaijan Democratic Republic. I.G.Abbasov fairly comes to a conclusion that national security bodies of the Azerbaijan Republic are the successor of secret service and counter-espionage bodies at the Azerbaijan Democratic Republic.

**Key words:** *Azerbaijan Democratic Republic, secret service and counter-espionage bodies, operational information, Organization of Anti-revolutionary fighting, concept.*